**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 7**

**Bakı şəhəri** **30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Cavid Telman oğlu Bayramovun Quba Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2026-cı il yanvar ayının 14-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Bayramov Cavid Telman oğlu Quba Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il iyul ayının 14-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2026-cı il yanvar ayının 14-də Dövlət Statistika Komitəsi aparatının Hüquq və insan resurslarının idarə edilməsi şöbəsi müdirinin müavini-Hüquq sektorunun müdiri Vüsal İsmayılov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Mahir Abbasov və müstəqil ekspert Ruslan Məmmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Bayramov Cavid Telman oğluna müsahibə komissiyasının üzvlərindən R.Məmmədov 15 bal, V.İsmayılov və M.Abbasov 14 bal vermiş və nəticədə iştirakçı 14.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 15.01.2026-cı il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Bayramov Cavid Telman oğlunun 2026-cı il 15 yanvar tarixli apellyasiya şikayəti təmin edilməsin və Quba Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2026-cı il yanvar ayının 14-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Əsli düzdür:

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN